AZƏRBAYCAN RESPUBLİKASININ

MALİYYƏ BAZARLARINA NƏZARƏT PALATASI

# QİYMƏTLİ KAĞIZLAR BAZARININ RÜBLÜK GÖSTƏRİCİLƏRİ

*30 sentyabr 2017-ci il tarixinə*

**Bakı – 2017**

# Qiymətli kağızlar bazarının ümumi icmalı

2017-ci ilin yanvar-sentyabr ayları ərzində qiymətli kağızlar bazarı 9,2 mlrd. manat təşkil etmişdir. Əməliyyatların sayında, həm də ayrı-ayrı bazar seqmentlərində ötən ilin müvafiq dövrü ilə müqayisədə artım müşahidə edilmişdir. Belə ki, 2017-ci ilin 9 ayı ərzində (hesabat dövrü) korporativ qiymətli kağızların təkrar bazarı 3 dəfə artaraq 1,1 mlrd. manatı ötmüş, dövlət qiymətli kağızlar bazarı 8 dəfə artaraq 3 mlrd. manat, törəmə maliyyə alətləri bazarı isə 15% artaraq 3,7 mlrd. manat olmuşdur.

Ümumi göstəricilər

| | 2017 yanvar - sentyabr | | 2016 yanvar - sentyabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,191** | **2,453,126,092** | **2,080** | **8,287,491,583** | **-70%** | **27%** |
| İlkin bazar | 121 | 1,324,926,355 | **155** | 7,908,487,290 | **-83%** | |
| Təkrar bazar | 2,070 | 1,128,199,736 | **1,925** | 379,004,293 | **3 dəfə** | |
| **Dövlət qiymətli kağızları** | **646** | **3,019,095,529** | **158** | **380,109,642** | **8 dəfə** | **33%** |
| İlkin bazar | 591 | 2,985,382,032 | **111** | 261,429,317 | **11 dəfə** | |
| Təkrar bazar | 55 | 33,713,497 | **47** | 118,680,325 | **-72%** | |
| **Törəmə maliyyə alətləri** | **57,689** | **3,693,363,558** | **33,585** | **3,208,684,549** | **15%** | **40%** |
| **Repo/əks-repo** | **17** | **11,577,452** | **1** | **1,464,758** | | **0.1%** |
| **Qiymətli kağızlar bazarı** | **60,543** | **9,177,162,630** | **35,824** | **11,877,750,532** | **-23%** | **100%** |
| İlkin bazar | 712 | 4,310,308,387 | 266 | 8,169,916,607 | **-47%** | |
| Təkrar bazar | 59,831 | 4,866,854,243 | 35,558 | 3,706,369,167 | **31%** | |









# Korporativ qiymətli kağızlar

Hesabat dövrü ərzində real sektor təmsilçilərinin və maliyyə institutlarının fond bazarı vasitəsilə öz kapitallarını artırmaq təşəbbüsləri korporativ qiymətli kağızlar bazarının səhm seqmentində əməliyyatların həcminin 58% (və ya 404 mln. manat) artaraq 1,1 mlrd. manat təşkil etməsinə səbəb olmuşdur. Ümumilikdə, səhmlərin ilkin bazarında bağlanan əqdlərin məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,6 dəfə artaraq 1 mlrd. manatı üstələmişdir.

Korporativ qiymətli kağızlar

| | 2017 yanvar - sentyabr | | 2016 yanvar - sentyabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Korporativ qiymətli kağızlar** | **2,191** | **2,453,126,092** | **2,080** | **8,287,491,583** | **-70%** | **100%** |
| **Səhmlər** | **1,472** | **1,104,361,997** | **1,952** | **699,936,424** | **58%** | **45%** |
| Səhm (ilkin bazar) | 45 | 1,012,664,610 | 101 | 384,791,803 | **2,6 dəfə** | |
| Səhm (təkrar bazar) | 1,427 | 91,697,386 | 1,851 | 315,144,622 | **-71%** | |
| **Korporativ istiqrazlar** | **719** | **1,348,764,095** | **128** | **7,587,555,159** | **-82%** | **55%** |
| İlkin bazar (manatla) | 48 | 202,850,050 | 23 | 7,501,740,000 | **-97%** | |
| İlkin bazar (xarici valyutada) | 28 | 109,411,695 | 31 | 21,955,487 | **5 dəfə** | |
| Təkrar bazar (manatla) | 37 | 752,721,361 | 34 | 51,235,793 | **14,6 dəfə** | |
| Təkrar bazar (xarici valyutada) | 606 | 283,780,989 | 40 | 12,623,879 | **22 dəfə** | |













Hesabat dövründə korporativ istiqrazlarla bağlanmış əqdlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 82% azalaraq 1,3 mlrd. manat olmuşdur. Digər tərəfdən hesabat dövründə xarici valyutada yerləşdirilmiş korporativ istiqrazların həcmi 5 dəfə artaraq 109,4 mln. manata çatmışdır. Eyni zamanda, korporativ istiqrazların həm milli, həm də xarici valyutada təkrar bazarında əhəmiyyətli artım müşahidə olunmuşdur. Belə ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə manatla təkrar bazarın həcmi 14,6 dəfə artaraq 753 mln. manat, xarici valyutada isə 22 dəfə artaraq 284 mln. manat təşkil etmişdir.

# Dövlət qiymətli kağızları

Hesabat dövrü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən milli valyutaya olan təzyiqlərin azaldılması məqsədilə manat kütləsinin sterilizasiyası not buraxılışı vasitəsi ilə həyata keçirilmişdir. Məhz not buraxılışı dövlət qiymətli kağızları bazarında əməliyyatların həcminin artım dinamikasını müəyyən etmişdir.

Dövlət qiymətli kağızları

| | 2017 yanvar - sentyabr | | 2016 yanvar - sentyabr | | məbləğ üzrə fərq | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Dövlət qiymətli kağızları** | **646** | **3,019,095,529** | **158** | **380,109,642** | **8 dəfə** | **100%** |
| **Dövlət istiqrazları** | **306** | **506,374,370** | **158** | **380,109,642** | **33%** | **17%** |
| İlkin bazar | 251 | 472,660,873 | 111 | 261,429,317 | **81%** | |
| Təkrar bazar | 55 | 33,713,497 | 47 | 118,680,325 | **-72%** | |
| **Mərkəzi Bankın notları** | **340** | **2,512,721,159*** | **0** | **0** | | **83%** |
| İlkin bazar | 340 | 2,512,721,159 | 0 | 0 | | |
| Təkrar bazar | 0 | 0 | 0 | 0 | | |

* - yerləşdirilmiş həcm 2,534,074,600 AZN










Cari ilin 9 ayında dövlət qiymətli kağızları bazarında əqdlərin həcmi ötən illə müqayisədə 8 dəfə artaraq 3 mlrd. manatı üstələmiş, bunun da 83%-ni (və ya 2,5 mlrd. manat) Mərkəzi Bankın notları ilə ilkin bazarda bağlanan əqdlər təşkil etmişdir. Mərkəzi Bankın notları nəzərə alınmadan da dövlət qiymətli kağızlar bazarında müsbət dinamika müşahidə olnunmuşdur (bu seqment ötən ilin müvafiq dövrü ilə müqayisədə 33% və ya 126,3 mln. manat artmışdır). Notların ilkin bazarında bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 10,91% təşkil etmişdir.

Hesabat dövründə qısa və ortamüddətli dövlət istiqrazları ilə 506,4 mln. manat məbləğində əqd bağlanmışdır. Qısamüddətli dövlət istiqrazlarının ilkin bazarında (472,7 mln. manat) bağlanmış əqdlər üzrə orta çəkili gəlirlilik 13,67% olmuşdur. Dövlət istiqrazları ilə təkrar bazar əqdlərinin məbləği 33,7 mln. manat olmuşdur.

# Törəmə maliyyə alətləri bazarı

Hesabat dövrü ərzində Bakı Fond Birjasının törəmə maliyyə alətləri platformasında ümumi məbləği 3,4 mlrd. manat olan valyuta əsaslı və ümumi dəyəri 307,4 mln. manat olan əmtəə əsaslı törəmə maliyyə alətləri ilə ticarət əməliyyatları həyata keçirilmişdir. Ümumilikdə törəmə maliyyə alətləri bazarının ümumi həcmi 3,7 mlrd. manat olmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 15% artmışdır.

Törəmə maliyyə alətləri bazarı

| | 2017 yanvar - sentyabr | | 2016 yanvar - sentyabr | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Törəmə maliyyə alətləri** | **57,689** | **3,693,363,558** | **33,585** | **3,208,684,549** | **15%** | **100%** |
| Əmtəə əsaslı fərq müq. | 5,707 | 307,419,373 | 4,031 | 199,655,912 | **54%** | 8% |
| Valyuta əsaslı fərq müq. | 51,982 | 3,385,944,185 | 29,554 | 3,009,028,637 | **13%** | 92% |

# Repo və əks-repo əməliyyatları

Hesabat dövründə qiymətli kağızlarla keçirilən repo əməliyyatlarının ümumi məbləği 11,6 mln. manat olmuşdur. Bunun 85%-ni (9,9 mln. manat) dövlət istiqrazları ilə olan 15 repo əməliyyatı təşkil etmişdir. Korporativ istiqrazlarla 1,7 mln. manat məbləğində 2 repo əməliyyatı aparılmışdır.

Repo və əks-repo əməliyyatları

| | 2017 yanvar - sentyabr | | 2016 yanvar – sentyabr | | məbləğ üzrə fərq (%) | bazar payı (%) |
|---|---|---|---|---|---|---|
| | əqd sayı | məbləğ (AZN) | əqd sayı | məbləğ (AZN) | | |
| **Repo/əks-repo** | **17** | **11,577,452** | **1** | **1,464,758** | | **100%** |
| Korporativ istiqrazlar ilə repo | 2 | 1,725,767 | **0** | **0** | | 15% |
| Dövlət istiqrazları ilə repo | 15 | 9,851,685 | **1** | **1,464,758** | | 85% |
| Mərkəzi Bankın notları ilə repo | 0 | 0 | **0** | **0** | | 0% |

# Qiymətli kağızların dövlət qeydiyyatı

2017-ci ilin yanvar-sentyabr aylarında 7,2 mlrd. manat və 3,1 mlrd. ABŞ dolları məbləğində qiymətli kağızların dövlət qeydiyyatı həyata keçirilmişdir. Həmçinin 349 min avro məbləğində korporativ istiqrazlarım buraxılışı dövlət qeydiyyatına alınmışdır.

**Səhmlər üzrə:** 2017-cı ilin ilk 9 ayı ərzində ümumi məbləği 2,3 milyard manat olan 40 səhm dövlət qeydiyyatına alınmışıdır. Bunlardan 1,2 milyard manatı kredit təşkilatları, 54,7 milyon manatı sığorta şirkətləri, 963 milyon manatı isə digər təşkilatlara məxsusdur.

| Təşkilatın növü | Qeydiyyatın sayı | Məbləğ (AZN) |
|---|---|---|
| Kredit təşkilatları | 13 | 1 235 066 265 |
| Sığorta şirkətləri | 2 | 54 714 750 |
| Digər təşkilatlar | 25 | 962 853 820 |
| **CƏMİ** | **40** | **2 252 634 835** |

**Korporativ istiqrazlar üzrə:** Hesabat dövründə 205 mln. manat və 1051,4 mln. ABŞ dolları məbləğində 35 korporativ istiqrazlar dövlət qeydiyyatına alınmışıdır. Cari ilin mart ayında uzun fasilədən sonra ilk dəfə avro ilə 349 min avro məbləğində 1 korporativ istiqrazın (sonuncu dəfə 2011-ci ildə) dövlət qeydiyyatı həyata keçirilmişdir. Dövr ərzində kredit təşkilatlarına məxsus ümumilikdə 3,7 mln. manat və 1002,2 mln. ABŞ dolları məbləğlərində 20 korporativ istiqrazlar dövlət qeydiyyatına alınmışıdır.

**Dövlət qiymətli kağızları üzrə:** 2017-ci ilin yanvar-sentyabr ayları ərzində ümumilikdə 3,9 mlrd. manat məbləğində dövlət qiymətli kağızları qeydiyyata alınmışdır. Dövr ərzində Maliyyə Nazirliyinin ümumi məbləği 700 mln. manat olan dövlət istiqrazları və Mərkəzi Bankın ümumi məbləği 3,2 mlrd. manat olan notları dövlət qeydiyyatına alınmışdır.

| Təşkilatın növü | Qeydiyyatın sayı | Məbləğ (mln. AZN) |
|---|---|---|
| Dövlət istiqrazları | 2 | 700 |
| Mərkəzi Bankının notları | 37 | 3,235 |
| **CƏMİ** | **39** | **3,935** |

**Veksel üzrə:** Hesabat dövründə 3 mlrd. ABŞ dolları və 800 mln. manat məbləğində ümumilikdə 9 veksel buraxılışı dövlət qeydiyyatına alınmışdır.